UOT 39:739.2(479.24)
Kamalə ƏLİYEVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
"Müasir Etnologiya" şöbəsi, tarix üzrə fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi
aylin_kama@mail.ru
https://orcid.org/0009-0004-7434-9843

QADIN BƏZƏKLƏRİ İLƏ BAĞLI ADƏT VƏ ƏNƏNƏLƏR

Xülasə: Məqalədə Azərbaycanda qadın bəzəklərinin tarixi, etnoqrafik və simvolik xüsusiyyətləri geniş şəkildə araşdırılmışdır. Tədqiqatın əsas məqsədi qadın bəzəklərinin yalnız estetik məqsəd daşımadığını, həm də dini, qoruyucu və sosial funksiyalara malik olduğunu göstərməkdir. Bu məqsədlə arxeoloji qazıntılar, yazılı mənbələr və şifahi etnoqrafik məlumatlar sistemli şəkildə təhlil edilmişdir. Məqalədə müxtəlif amuletlər, ulduz və aypara motivləri, quş və balıq təsvirləri, firuzə, əqiq, zümrüd, mirvari və digər qiymətli daşlardan istifadə nümunələri təqdim olunmuşdur. Həmçinin, kəmər, sırğa, üzük və bilərziklərin həm bəzək, həm də qoruyucu və müalicəvi simvol kimi rolu araşdırılmışdır. Qadın bəzəklərinin fərdi və ictimai həyatda tutduğu yer, toy və mərasimlərdə istifadəsi, dini məhdudiyyətlər və dövrlərə görə dəyişən adət-ənənələr də diqqət mərkəzində saxlanılmışdır. Tədqiqat göstərir ki, qadın bəzəkləri həm estetik zövqün ifadəsi, həm qoruyucu vasitə, həm də ictimai status və ailə həyatında rolun simvolu olmuşdur. Məqalədə bəzəklərin üzərindəki naxışların ibtidai dövrdən XIX əsrə qədər keçdiyi tarixi inkişaf mərhələləri, dini-mitoloji kökləri və xalqın dünyagörüşünü əks etdirməsi izah edilmişdir. Bu baxımdan, qadın bəzəkləri həm mədəni irs, həm də etnoqrafik və simvolik araşdırmalar üçün zəngin material kimi təqdim olunmuşdur.
Açar sözlər: qadın bəzəkləri, amulet, qiymətli daşlar, etnoqrafiya, simvolizm, Azərbaycan

Kamala ALİYEVA

CUSTOMS AND TRADİTİONS RELATED TO WOMEN'S ADORNMENTS

Abstract: The article provides a comprehensive study of the historical, ethnographic, and symbolic features of women's jewelry in Azerbaijan. The research demonstrates that these adornments served not only aesthetic purposes but also fulfilled religious, protective, and social functions. The study draws on archaeological findings, written sources, and oral ethnographic data to analyze the cultural significance of jewelry. Various amulets, motifs of stars and crescents, depictions of birds and fish, and the use of precious stones such as turquoise, agate, emerald, and pearl are examined. Additionally, the symbolic and protective roles of belts, earrings, rings, and bracelets are explored. The article discusses the role of jewelry in both individual and social life, its use in weddings and ceremonial contexts, as well as religious restrictions and evolving traditions over different historical periods. The research highlights that women's adornments expressed aesthetic taste, acted as protective and medicinal objects, and symbolized social status and familial roles. Furthermore, the historical development of ornamentation from the prehistoric period to the 19th century is outlined, including its religious and mythological roots. The study concludes that Azerbaijani women's jewelry represents a rich source for understanding cultural heritage, ethnography, and symbolic practices.
Keywords: women's jewelry, amulet, gemstones, ethnography, symbolism, Azerbaijan

Кямаля АЛИЕВА

ОБЫЧАИ И ТРАДИЦИИ, СВЯЗАННЫЕ С ЖЕНСКИМИ УКРАШЕНИЯМИ

Абстракт: В статье подробно исследуются исторические, этнографические и символические особенности женских украшений в Азербайджане. Основная цель исследования заключается в том, чтобы показать, что женские украшения выполняли не только эстетическую функцию, но и обладали религиозным, охранным и социальным

значением. Для этого системно анализировались археологические раскопки, письменные источники и устные этнографические сведения. В статье представлены различные амулеты, мотивы звезд и полумесяцев, изображения птиц и рыб, а также использование драгоценных камней, таких как бирюза, агат, изумруд и жемчуг. Кроме того, исследованы функции поясов, серег, колец и браслетов как декоративных предметов, одновременно выполняющих охранную и лечебную роль. Рассмотрено значение украшений в индивидуальной и общественной жизни женщин, их использование на свадьбах и церемониях, а также религиозные ограничения и изменяющиеся традиции в разные эпохи. Исследование показывает, что женские украшения были одновременно выражением эстетического вкуса, защитным средством и символом социального статуса и роли в семейной жизни. В статье также освещается историческое развитие орнаментов на украшениях от первобытного периода до XIX века, их религиозно-мифологические корни и отражение мировоззрения народа. Таким образом, женские украшения представляют собой богатый материал для изучения культурного наследия, этнографии и символики. украшения представляют собой богатый материал для изучения культурного наследия, этнографии и символики.

Ключевые слова: женские украшения, амулет, драгоценные камни, этнография, символизм, Азербайджан

Giriş

Arxeoloji və etnoqrafik araşdırmalara əsasən müəyyən edilmişdir ki, orta əsrlər dövründə Azərbaycanda da animizm, totemizm, fetişizm kimi qədim təsəvvürlər mövcud olmuş və həmin təsəvvürlər bəzək əşyalarında əksini tapmışdır. Bu mənada, bəzək əşyalarına yalnız estetik zövqün təzahürü kimi baxmaq düzgün hesab oluna bilməz.

Məlumdur ki, təbiəti və təbiət hadisələrini dərk etmək iqtidarında olmayan ibtidai insanlar dünyanın müxtəlif ruhlardan ibarət olduğunu güman edirdilər. Onlar özlərini pis ruhlardan qorumaq və xeyirxah ruhları köməyə çağırmaq üçün ən müxtəlif tədbirlərə əl atırdılar. Məsələn, onların formasını yaradır və ya hər hansı əşyanın üzərini müxtəlif işarələrlə bəzəməklə, bir növ müdafiə sistemi yaradırdılar. Bu baxımdan bəzən bəzək əşyaları və geyimlər də praktiki əhəmiyyətə malik olmaqla, qoruyucu və xəstəliklərin qarşısını almaq funksiyasını yerinə yetirirdilər.

İbtidai icma quruluşundan başlayaraq, insanların həyatına daxil olan və bütün dövrlərdə simvolik məna daşıyan müxtəlif amuletlər onları şər qüvvələrdən və xəstəliklərdən qoruma vasitəsi kimi istifadə edilmişdir. Bu amuletlər uşaqların boyunlarından asılır, yaxud da paltarlarının sol çiyninə tikilirdi. Onların üzərində Qurani Kərimdən ayələr, dualar yazıldığı üçün, "yazılı amuletlər" də adlanırdı. Azərbaycan ərazisində hələ tunc dövrü abidələrindən müxtəlif heyvan fiqurları şəklində hazırlanmış asmaların tapılması sübut edir ki, bu adət hələ islamdan əvvəlki dövrlərdə mövcud olmuşdur.

Asma medalyonlar yerli əhalinin fikrincə, nəsil artımı ilə əlaqədar idi. Azərbaycanlıların qədim dini etiqadlarına görə səma cisimlərini əks etdirən amuletlər böyük əhəmiyyətə malik olmuşdur. Bunlardan "ay-ulduz", "aypara", "gül", "şarlı" kimi bəzəklər ulduz, ay və günəşi təmsil etmişdir. Azərbaycan zərgərliyində geniş istifadə olunan bu bəzək ünsürlərindən biri də "ulduz" motividir. Qadın boğazaltılarının hazırlanmasında əsas bəzək ünsürü sayılan ulduz əsasən beş, altı, səkkiz və on guşəli olurdu. Ona qəlibləmə üsulu ilə hazırlanmış qızıl piləklərin üzərində də rast gəlinir. Bu bəzəkləri həm boyunbağı kimi boyundan asır, həm də alınlıq kimi baş bəzəklərində istifadə edirdilər (əsasən tatlarda və Şahdağ qrupuna daxil olan xalqlarda). Bir sıra bölgələrdə də bu bəzəklər muncuqlarla birlikdə işlədilirdi.

Naxçıvan üçün xarakterik olan "qarabatdaq" adlanan bəzəklərdə də ulduz motivini izləmək mümkündür. Bununla bərabər "aypara" sırğalar da dəbdə olmuşdur. Bu növ sırğalara "heydəri" sırğa deyilirdi. Onları əziz-xələf oğlan uşaqlarının bir qulağına taxırdılar ki, onu pis gözdən qorusun. Aypara formalı sırğaların Qafqaz Albaniyası ərazisində hələ eramızın I əsrində mövcud olması haqqında da məlumatlar vardır.

Azərbaycan ərazisində aypara formalı döş bəzəkləri də mövcud olmuşdur. Çöl-etnoqrafik materiallarından məlum olur ki, Azərbaycanın bəzi bölgələrində anadan təzəcə doğulmuş körpə uşaqlara aypara fiqurlu bəzək bağışlanırdı. Məlumatçı Kübra Hilal qızının (Biləcəri kəndi, 1926-cı il)

sözlərinə görə, Bakı və Abşeron kəndlərində aypara oğlan uşaqlarının papağına, qızların isə paltarlarının döş hissəsinə taxılırdı. Bu amulet birinci uşaq dünyaya gələndə ona yaxın qohumları tərəfindən bağışlanardı. Quba bölgəsində zahı qadının yanına gələrkən digər hədiyyələrlə yanaşı, uşaq üçün qızıl aypara da gətirirdilər [1, s. 47].

Azərbaycan zərgərləri öz yaradıcılığında quş motivlərindən də istifadə etmişlər. Bu motiv Azərbaycan ərazisində Sasani imperiyasının hakimiyyət dövrü üçün xarakterik olub, sonralar isə naxış kimi işlənmişdir. Arxeoloji qazıntılardan tapılan maddi-mədəniyyət nümunələrində quş motivindən yaradıcılıqla istifadə olunmuşdur. İran mədəniyyətinə xas olan bu təsvirlər təmizləyici, nəsil artırma və günəş simvolu sayılmışdır.

Hələ eramızın I əsrində tovuzquşu və xoruz Zərdüştün müqəddəs odunun qoruyucusu sayılmışdır. Sonrakı dövrlərdə digər dinlərdə də quşa müsbət münasibət bəslənilmişdir.

Xalq inam və inaclarında insan ruhunun quşda, xüsusilə göyərçində yerləşməsi haqqında fikirlər geniş yayılmışdır. Ümumiyyətlə, quş səma ilə əlaqədar olduğundan günəş allahının rəmzi kimi qavranılmışdır. XIX əsrdə Rusiya imperiyasının və müasir Rusiya Federasiyasının gerbini ikibaşlı qartal təsviri bəzəyir. Azərbaycan imperiyanın hakimiyyəti altında olduğu üçün, bir çox sənət nümunələrinin hazırlanmasında quşların stilizə edilmiş təsvirlərindən istifadə edilmişdir. Lakin, azərbaycanlı ustalar bu quşları bir növ göyərçinə bənzər formada hazırlayırdı [3, s.122]. Xalq göyərçini paklığın, nəcibliyin və azadlığın rəmzi hesab etdiyindən, onu ovlamaq, öldürmək böyük qəbahət sayılmışdır. Sənətkarlar da bu etiqadı incəsənətdə bədii təsir formasına çevirirdilər.

Zərgərlik nümunələrində balıq süjetli təsvirlərdən də geniş istifadə edilmişdir. Onlara Lənkəran və Bakı bölgəsi əhalisinin bəzəklərində daha çox rast gəlinir. Hətta Azərbaycan xalçaçılığında "balıq" adlanan ayrıca xalça növü də vardır [13, s.17, 1]. Bu cəhəti Mərkəzi Asiya və Qafqaz xalqları arasında da müşahidə etmək mümkündür.

Qadın bəzək əşyaları arasında qızıldan hazırlanmış "arpa" adlanan bəzəklərin də özünəməxsus rolu olmuşdur. Bu bəzək arpa formasında olduğu üçün belə adlanmışdır. O, həm boğazlatı kimi işlənmiş, həm də bir sıra qadın üst geyimlərinin yaxa və ətəyini bəzəmişdir. Arpa bolluq rəmzi sayılmış, artım nişanəsi hesab edilmişdir.

Gözmuncuğuları da yalnız bəzək ünsürü kimi deyil, eyni zamanda qoruyucu vasitə kimi geniş istifadə olunmuşdur. Yaman gözdən, bədnəzərdən qorunmaq vasitəsi kimi o, indinin özündə də özünəməxsus funksiyanı yerinə yetirməkdədir. Mərkəzi Asiya xalqları arasında gözmuncuğu "kuzmulçok" adlanır [19, s.92].

İnsanlar gözmuncuqları ilə bərabər, mərcan muncuqları da ilahiləşdirirdi. XIX əsrdə mərcan muncuqlar dünyanın bir sıra ölkələrində ən çox dəbdə olan muncuq növü olmuşdur. Bu muncuqların rəngi qırmızı olduğu üçün, insanlar ona sağlamlıq rəmzi kimi baxırdı. Bu muncuq növü Ukrayna, tacik, özbək və s. kimi müxtəlif dini əqidəyə malik xalqların nümayəndələri tərəfindən də böyük məmnuniyyətlə gəzdirilirdi.

Tacik və özbəklərdə mərcan muncuqları əsasən cavan qızlar və qadınlar gəzdirirdi. Milli ənənələrə görə bu muncuqlar var-dövlət və bolluq rəmzi sayılır, nəsil artırma simvolu kimi çoxuşaqlılığı təmin edirdi. Mərcan muncuqlar Azərbaycan qadınları arasında da dəbdə olmuşdur.

Azərbaycan zərgərləri bəzək əşyalarının hazırlanmasında qiymətli daşlardan da istifadə etmişlər. Bəzək elementi olmaqla bərabər, bu daşlar sehrli qüvvəyə malik hesab edilmiş və bu fikir uzun müddət insanların təfəkküründə yaşamışdır. Bir sıra daşlara isə müalicəvi əhəmiyyətinə görə münasibət bəslənirdi [10, s.157].

Orta əsrlərdə yaşayıb-yaratmış Nəsirəddin Tusi "Cavahirnamə" əsərində qiymətli minerallardan qırmızı yaqut, göy yaqut, almaz, ləl və firuzə kimi daşların təsvirini vermiş, yarımqiymətli daşlardan isə süleymandaşı, mirvari, ametist, malaxit və s. xüsusiyyətlərindən bəhs etmişdir. O, qiymətli minerallarn və yarımqiymətli daşların müalicə əhəmiyyətini də göstərmişdir [6, s.8].

Etnoqrafik materiallardan da aydın olur ki, azərbaycanlı zərgərlər öz işlərində "Cəvahirnamə" əsərində adları çəkilən qiymətli daşlardan istifadə etmişlər. Bu baxımdan firuzə digər daşlara nisbətən daha üstün mövqeyə malik olmuşdur. N.Tusi firuzənin yeddi növünün olduğunu qeyd etmişdir [6, s.22].

Firuzə daşı ilə əlaqədar bir sıra inamlar da məlumdur. Həmin inamlara görə o, insana xoşbəxtlik və xoş əhval-ruhiyyə gətirir. Xüsusilə qadınlar həmişə firuzə gəzdirməlidirlər ki, sevdikləri şəxsin onlara qarşı məhəbbəti artsın.

Təmizlik rəmzi sayılan firuzə daşı haqqında Əbu Reyhan Əl-Biruni yazırdı: "...Firuzə gözdəymədən xilas edir və onu gəzdirənə qələbə gətirir" [10, s.157].

Azərbaycanlıların etdiqlarına görə, firuzə qaşlı üzük insanlara xoşbəxtlik gətirir. Qadın ərinə xəyanət edərsə, firuzə rəngini dəyişərək qaralar.

Farsların qədim etiqadlarına görə, firuzə sevgidən ölmüş insanların sümüklərindən əmələ gəlmişdir [14, s.107].

Ona çox baxdıqda insanın görmə qabiliyyəti artır, əhval-ruhiyyəsi yaxşılaşır, gün ərzində pis fikirlərdən uzaqlaşır və gecələr qorxulu yuxulardan azad olur. Deyilənlərə görə, firuzə daşı köhnəlir, təzələnir və yenidən dirilir. Müxtəlif yağlar, sabun və nəmliyin təsiri altında o, rəngini də dəyişə bilir. Firuzə daşına və firuzə qaşlı üzüklərin üzərinə "Qurani-Kərim"dən kəlamlar yazılırdı.

Ən yaxşı firuzə daşı İranın Nişapur mədənlərindən gətirilən daş hesab olunurdu. O, təkcə Azərbaycanda deyil, Türkiyə, Misir, Çin və digər Şərq ölkələrində istifadə olunan sevimli daşlardan sayılırdı.

Rəngli daşlardan olan əqiq (serdolik) həm bəzək, həm də qoruyucu funksiyasını yerinə yetirmişdir. Bu daş tunc dövründən başlayaraq, günəşə yaxın ilahi qüvvə sayılmışdır. Qədim təsəvvürlərə görə, onda canlını xəstəlik və ölümdən qoruya biləcək qeyri-adi qüvvə vardır. O, insanı xəsarətlərdən və zədələrdən qoruyur. Məsələn, əgər uşaq uçmuş evin altında qalarsa, əqiq onu xilas edər. Bundan başqa əqiq hamilə qadınlarda ağrıları kəsir, südü kəsilmiş qadınlarda süd əmələ gətirir, körpə uşaqlarda qusmanı dayandırır. Təsadüfi deyil ki, indinin özündə də körpə uşaqların paltarlarına əqiq muncuq taxırlar. Bəzi inamlara görə, üzüyündə əqiq gəzdirən şəxs xoşbəxtliyə və səadətə qovuşar, şər qüvvələrdən və xəstəliklərdən xilas olar.

Əqiqdən möhür üzüklərin və muncuqların hazırlanmasında da istifadə olunmuşdur. Əqiqin vətəni Hindistan və Yəmən sayılır. İnamlara görə, ən yaxşı əqiq növü qırmızı rəngli əqiqdir [10, s.160].

Qiymətli daşlar və onların əhəmiyyəti

Qara rəngli şəvə muncuqlarla əlaqədar da bir sıra xalq inamları mövcud olmuşdur. Deyilənə görə, bu muncuğu gəzdirən şəxs heç bir şeydən qorxmur. O, insanı bədnəzərdən və şər qüvvələrdən hifz edir.

Dahi şair Nizami Gəncəvi öz əsərlərində qiymətli daşların bəzək kimi deyil, həmçinin rəmzi məna daşımasından da söhbət açır. Məsələn, mina və şəvədən bənzətmə kimi istifadə edən şair yazır: "Minalar (yaşıl qaşlar) arasında şəvə (qaradaş) kimi Çevik və sayıq budaqda oturmuşdu" [8, s.124].

Sırğa və üzüklərin qaşını bəzəyən zümrüd isə öz rənginin gözəlliyinə görə digər daşlardan fərqlənir. Hesab edilir ki o, həmçinin gizli tilsim xarakterinə malik olub, gözü xəstəliklərdən qoruyur, gözlərin işığını artırır və insanı fikirdən azad edir.

Azərbaycanlıların etiqadlarına görə, zümrüd bakirəliyi qorumaq qabiliyyətinə malik olmaqla, həm də qadınları hamiləlikdən tez azad etmək gücünə malik olmuşdur. Bu adət tatlar arasında daha geniş yayılmışdı. Deyilənə görə, zümrüdü gəzdirən şəxs pis yuxu görməz, dəli olmaz. O, ürəyə qüvvət verir, qanaxma, qızdırma xəstəliklərində və ishalın müalicəsində faydalı olur. Zəhərlənmiş şəxsə zümrüd tozu verərdilər. Zəhərli qurd-quş sancmalarında zümrüd tozunun məhlulu faydalı sayılır [6, s.19].

Əl-Biruni "Mineralogiya" əsərində yazırdı ki, qiymətli daşların ən yaraşıqlısı və dəyərli olanı yaqut daşıdır [10, s.34]. Müəllif yaqutun ağ, göy, sarı və qırmızı rəngli növlərini sadalayaraq, ayrı-ayrılıqda hər birinin xüsusiyyətlərindən danışır. Nəsirəddin Tusi isə "Cəvahirnamə" əsərində yaqutun xüsusiyyətləri və ondan istifadə qaydaları haqqında belə yazır: "Hind alimlərinə görə, yaqutu özü ilə gəzdirən şəxs taun xəstəliyindən qorunar və vəba xəstəliyinə tutulmaz. Yaqutu ağıza saldıqda ürəyə qüvvət verər, qüssə və kədəri unutdurar, susuzluğu söndürər. Başqa cəvahirlərdən fərqli olaraq, ağızda olarkən soyuqluğunu itirməz. Yaqutu gəzdirənlər başqalarının gözündə heybətli və əzəmətli görünər. Müalicə vasitəsi kimi o, gözün işığını artırar və sağlamlığını qoruyar [6, s.17].

Çox güman ki, azərbaycanlı qadınlar da bu daşın həm gözəlliyini, həm də faydalı xüsusiyyətlərini nəzərə alıb, ondan geniş istifadə etmişlər.

Qədim dövrlərdən başlayaraq, Azərbaycanda mirvari ilə işlənmiş bəzək əşyalarından da istifadə olunmuşdur. Mirvarinin bir sıra xüsusiyyətləri onu digər daş-qaşlardan fərqləndirmişdir. Mirvari odun istisində sıradan çıxır və saralır. Rütubətdə suyu qaçır. O, insanın ürəyinə qüvvət verir, ürək tutulmalarına və sıxıntılara son qoyur, boğazdan gələn qanı kəsir [6, s.14]. Göz xəstəlikləri zamanı mirvarini toz halına salıb gözə tökürlər. Bu zaman gözün gücü və görmə qabiliyyəti artır.

Rəngli daşların gözəlliyi və onların müalicəvi xarakteri insanların diqqətini hələ qədim zamanlardan cəlb etmiş və müasir dövrümüzə qədər istifadə olunur. Hətta ilin hər ayının da öz daşı olmuşdur. Məsələn, yanvar yaqut, fevral ametist, mart yəşəm, aprel dağ bülluru, may zümrüd, iyun mirvari, iyul əqiq, avqust xrizament, sentyabr sapfir, oktyabr opal, noyabr topaz, dekabr firuzə daşı sayılır. İndiki dövrdə də bəzi qadınlar aylara uyğun bəzək daşı gəzdirməyi sevirlər. Bütün əhalinin muncuqlara münasibəti eyni olmamışdır. Xüsusilə "kauri" adlanan asmalar eyni zamanda həm bəzək, həm də amulet kimi istifadə olunurdu. Azərbaycanlılar kauriləri "qarnıyarıq" adlandırmış və hesab etmişlər ki, kaurilərdə xəstəliklərin qarşısını almaq qüvvəsi vardır.

Arxeoloq alim Qara Əhmədova Talış bölgəsində apardığı şifahi sorğular nəticəsində müəyyən etmişdir ki, kaurilərə olan etiqad xalq arasında hələ də yaşamaqda davam edir. Həmin etiqadlara görə, kaurilər qusmanı saxlayır, yuxu gətirir və ağrıları kəsir, pis gözdən saxlayır [17, s.45]. Kaurilər qoruyucu kimi körpə uşaqların qollarına bağlanır, yaxud da paltarlarına tikilir. Altaylarda şamanların paltarlarının çiyninə üç cərgə olmaqla doqquz ədəd kauri tikir və bunu ilan başı (yılan başı) adlandırırlar [11, s.3-4].

Kəmər və digər bəzək əşyaları

Təkcə qiymətli daşlar deyil, həmçinin bəzək növləri olan kəmər, sırğa, üzük və digər bəzək əşyaları da xalqın estetik görüşləri ilə yanaşı, onların inam və etiqadlarının öyrənilməsində mühüm rol oynayır. Məsələn, pis gözdən və zərərli ruhlardan qorunmaq üçün kəmərdən amulet kimi də istifadə olunmuşdur. "Kəmərlənmək" bir növ şər qüvvələrdən mühafizə olunmaq, qorunmaq kimi başa düşülürdü. Müxtəlif xalqların əfsanə və nağıllarında "özünü dairəyə almaq" ifadəsinə tez-tez rast gəlinir [18, s.87].

Azərbaycanda yağışdan sonra görünən qövsü-quzehi (göy qurşağı) indinin özündə də "qarı nənənin qurşağı" və yaxud "qarı nənənin örkəni" adlandırırlar. "Qurşaq" sözü "Kitabi-Dədə Qorqud"da "quşaq" kimi işlənmişdir. Bu sözün ilkin mənası "bağlamaq" anlayışı ilə konkretləşdirildiyi halda, sonradan ona bəzək anlamı da əlavə olunmuşdur. Qədim mənbələrdə qurşaq sözündəki "qur" kökünün müstəqil mənası aşağıdakı nümunələrdə mühafizə olunmuşdur: "Gur kəmər, belbağı, ər gurun kurşandı", "kəmərini qurşadı" (bağladı) və s. [5, s.249]. Sonrakı dövrlərdə isə kəmər geyim komplektini tamamlayan bəzək əşyası funksiyasını yerinə yetirmişdir.

Nizami Gəncəvinin əsərlərində etnoqrafik məlumatları təhlil edən etnoqraf Ş.Bünyadova kəmərlərə şairin verdiyi təsvirlə yanaşı, fərdi münasibətini də bildirir. O yazır: "Xəmsədə təsvir edilən müxtəlif bəzək növlərindən biri kəmərlərdir. Kəmər qadın paltarlarının daha yaraşıqlı görünməsində əsas rol oynayır, onu tamamlayır və gözəlləşdirir. Qadın geyimlərinə xüsusi yaraşıq verən kəmər onların bədənini cazibədar göstərir. Müxtəlif növlərə malik olan kəmərlər bəzən daş-qaşla da bəzədilirdi. Şair bunu belə təsvir etmişdir: "Kəmərlərdə parlayan gecə işıqlandıran gövhərlər, Gündüzün gözünü qamaşdırırdı" [7, s.158]. "Minlərlə qızıl kəmər bağlamışdı, Hamısının qızıl sikkələrinin mıxı sındırılmışdır...» [2].

Kəmərin qadının ailədə ictimai rolunu müəyyən etmək üçün də əhəmiyyəti vardı. Bəzi adətlərə görə qızlar kəmər taxmırdılar. Onlara kəməri toy hədiyyəsi kimi valideynləri bağışlayırdı. Ər evinə gəlin gedən hər qızın öz kəməri olmalıydı. O, nəsil artıma rəmzi sayılırdı. Gəlin gedən qızın belini qırmızı rəngli qurşaqla bağlayır və deyirdilər:

"Anam, bacım qız gəlin,
Əli-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin"

Gəlinin belini bağlamaq Azərbaycanın bütün bölgələrinin toy adətlərində bu günəcən yaşamaqdadır.

Azərbaycanlı qadınların həyatında digər bəzəklərə nisbətən üzük və sırğalar əhəmiyyətli rol oynamışdır. Bəzi qadınlar çox vaxt bütün ömürləri boyu bu bəzəkləri qulaqlarında və barmaqlarında gəzdirirdilər. Yaş dövrü ilə əlaqədar bəzəklərin formaları, naxışları dəyişilsə də, ümumi forması dəyişməmişdir.

Sırğa, üzük və bilərziklər

Sırğa və üzük əsas bəzək əşyası olmaqla yanaşı, qoruyucu funksiya da daşımışdır. Bunu ailədə körpə oğlan uşaqlarının bir qulağına sırğa keçirilməsi adəti də sübut edir. Və yaxud, körpəni birinci dəfə çimizdirərkən suya duz və kömürlə bərabər, üzük də salırdılar. Bu adət digər Şərq xalqlarında da mövcud olmuşdur [19, s.98].

Azərbaycanlılarda belə etiqad da olmuşdur ki, xörək və ya çörək bişirərkən qadın barmağına mütləq üzük taxmalı idi. Əks halda, onun əlləri təmiz sayılmazdı.

Ət-Təbərinin yazdığına görə, müsəlmanlarda namaz vaxtı qızıl üzüyün geyilməsi qadağan olunurdu. Lakin qızıl üzüyü taxıb çıxarmaq hər dəfə çətinlik törətdiyindən, onlar əsasən gümüş üzüklərdən istifadəyə üstünlük verirdilər [12, s.217]. İnamlara görə, gümüş pis qüvvələrə qarşı etibarlı müdafiə vasitəsi sayılırdı. Ömər Xəyyama (XII əsr) görə, hər kəsin öz üzüyü olmalıdır [15, s.199].

Yazılı mənbələr və arxeoloji materialların təhlili göstərir ki, üzük həm də mifoloji təfəkkürün obyektlərindən biri olmuşdur. Bunu qədim dastan və nağıllarımızda, əsatirlərdə də görmək mümkündür.

Müasir dövrdə xalq arasında üzüklə əlaqədar bir sıra ayinlər, inanclar, fallar və oyunlar mövcuddur. Onlardan üzük falı daha geniş yayılmışdır. Bu zaman bir neçə qız toplaşıb qab götürür və həmin qabı su ilə doldururlar. Sonra üzüklərini çıxarıb qabın içinə atırlar. Kənardan gələn başqa bir qız həmin qabın içindən götürdüyü üzüyü yiyəsinə düzgün verərdisə, həmin qızın bütün arzuları həyata keçəcəkdi. Əgər üzük sahibinə düz qaytarılmırdısa, üzüyü iynədən keçirilmiş pambıq sapın ortasına salırdılar. Üzük düz gedirdisə həmin adam sonsuz, sağ tərəfə meyllənirdisə çoxlu uşağı, sol tərəfə gedirdisə istədiyi oğlanla xoşbəxt olacağı güman edilirdi.

Bəxt üzüyü evlilik rəmzi sayılırdı. Üzüyün itməsi baş verəcək hər hansı xoşagəlməz hadisə öncəsi xəbərdarlıq kimi qələmə verilirdi.

Üzüyün hansı barmağa geyilməsinin də öz mənası vardı. Nişanlı qızlar sol əlin dördüncü barmağına, ərli qadınlar sağ əlin dördüncü barmağına, dul qadınlar isə sağ əlin ikinci barmağına üzük taxırdılar.

Mehr-məhəbbət rəmzi, əhd-peyman nişanəsi kimi meydana çıxmış üzüklər növlərinə görə qaşlı və qaşsız üzüklərə bölünürdü. Zümrüd və brilliant qaşlı üzüklər baha başa gəldiyindən yüksək qiymətləndirilirdi. Bəzən üzüyün qaşı düzbucaqlı, dairə (girdə), oval, paxlava olmaqla müxtəlif formalarda hazırlanırdı. Ən çox dəbdə olan üzüklər "paxlava" şəkilli qaşlı üzüklərdir. Qaşsız üzüklər içərisində isə nişan üzüyünün xüsusi yeri var idi.

Qadın bəzək əşyalarına daxil olan bilərziklər bəzək əşyası kimi çox qədim zamanlardan mövcuddur. İnsanlar özlərini şər qüvvələrdən mühafizə etmək üçün bilərzikdən amulet kimi də istifadə etmişlər. Mingəçevir küp qəbirlərindən bəzən bir skletin üzərindən hətta 56-ya qədər bilərziyin tapılması hallarına da rast gəlinmişdir [4, s.95].

Dini mahiyyət kəsb edən bilərziklərin gəzdirilməsi zəruri, bəzi hallarda hətta məcburi sayılırdı. Bu hal onların hər iki tərəfdən uc hissələrində müxtəlif heyvan başlarının təsvir edilməsi ilə təsdiq olunur. Belə ki, antik və ilk orta əsrlər dövründə bilərziklərin uc hissələri qoyun, ilan, canavar formasında hazırlanırdı. Bu haqda Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində də müəyyən məlumatlara rast gəlmək olur:

"Gah bilərziyini əlindən çıxarırdı,
Onun bazubəndi ilə oynayırdı,
Gah xalxallarını ayağından çıxarırdı" [7, s.294].

Bəzək əşyalarının üzərindəki müxtəlif naxışlara əsasən həmin dövr insanlarının dünyagörüşü haqqında da məlumat əldə etmək mümkündür. Azərbaycanda naxış tarixinin üç dövrü olmuşdur:

1. İbtidai icma quruluşunda əşyaların totem rəsmlərlə bəzədilməsi dövrü;
2. E.ə. I minillikdə bu rəsmlərin simvollara çevrilməsi dövrü;
3. Yeni erada bu simvolların əsasında naxışların yaranması dövrü [9, s.110].

Qədim dövrlərdə olduğu kimi, XIX əsrdə də bəzəklərin üzəri müxtəlif naxışlarla işlənirdi. Bu cəhəti xüsusilə baş bəzəkləri və kəmərlər üzərində izləmək mümkündür. Naxışların iki əsas növü həndəsi və təsviri naxışlardan ibarətdir. Birinci naxış abstraktizm üzərində qurularaq, həndəsi formaları təsvir edirsə, təsviri naxış canlı həyatın konkret bir predmetinə həsr olunur. Onlar həmçinin xalqın estetik dünyagörüşünü nümayiş etdirməklə, müxtəlif tarixi hadisələri öyrənmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

Hazırda naxışlar öz əvvəlki dini rəmzi mənasını itirsə də, cəmiyyət həyatında baş verən dəyişikliklərin bariz göstəricisi kimi qəbul olunur [16, s.103]. Məlum olduğu kimi, müxtəlif dövrlərdə Azərbaycan Bizans, Sasani, ərəb və rus mədəniyyətlərinin təsirinə məruz qalmışdır. Bütün bunlar da XIX əsr zərgərlərinin yaradıcılığında bu və ya digər formada əksini tapmışdır. Keçmiş ənənələrə tez-tez müraciət edən ustalar dövrə uyğun yeni sənət nümunələri yaratmışlar.

İsmayılova Firəngiz (Laçın rayon sakini, hal-hazırda Sumqayıt şəhərində yaşayır. 90-a yaxın yaşı var); Kərimova Fatma (Laçın r. sakini 80 yaş Sabunçu qəsəbəsində yaşayır), Bakı sakinlərindən Sultanova Kübra Hilal qızı (88 yaş), Nəsibə Pirverdi qızı (93 yaş) və başqalarından aldığımız məlumatlara istinadən deyə bilərik ki, insanların bəzək əşyalarına münasibətində estetik tələblərlə yanaşı, dini təsəvvürlər də əksini tapmış və bu cəhət müxtəlif mərasimlərdə canlandırılmışdır.

Müəyyən dövrlərdə qadınlara bəzək əşyalarının gəzdirilməsi qadağan olunurdu. Müsəlmanların matəm mərasimlərindən olan "Məhərrəmlik"də bəzək əşyalarını taxmaq, qırmızı paltar geyinmək olmazdı. Yaxın qohum (ata, ana, qardaş, bacı, oğul, qız və s.) rəhmətə gedəndə də qadınlar bəzəklərini çıxarır və bir il ərzində qara paltar geyinib yas saxlayırdı.

Qadınlar uşaq anadan olandan çilləsi çıxana qədərki dövrdə (40 gün) bəzəkdən istifadə etmirdilər. Bundan başqa kənd yerlərində gündəlik ev işləri ilə məşğul olan qadınlar bəzək əşyalarına həvəs göstərmirdilər. Çünki bəzək əşyalarının taxılması təkcə estetik zövqün nişanəsi olmayıb, həm də maddi rifahın göstəricilərindən biri idi. Sorğulara əsasən deyə bilərik ki, qadınlar xoş əhval-ruhiyyədə olarkən bəzək əşyalarına tələbat da yüksək olur. Toylarda, nişanlarda bəzəklər onların gözəlliyini daha da artırırdı.

Nəticə

Müasir dövrdə Azərbaycan qadınlarının bəzək əşyalarına münasibətində həm estetik, həm də dini-mitoloji elementlər öz əksini tapır. Qiymətli daşlar, muncuqlar və digər bəzəklər yalnız gözəllik məqsədi daşımaqla kifayətlənmir, eyni zamanda qoruyucu və xəstəliklərdən müdafiəedici funksiyaya malik olmuşdur. Naxış və ornamentlər insanların dini-mitoloji təsəvvürlərini əks etdirərək tarixi inkişafın izlərini göstərir. Qadınlar bəzək əşyalarını sosial statuslarını vurğulamaq, mərasimlərdə iştirak etmək və ailə həyatında rolunu ifadə etmək məqsədilə istifadə etmişlər. Beləliklə, qadın bəzəkləri həm mədəni irs, həm də etnoqrafik təcrübənin vacib elementinə çevrilmişdir.

Ədəbiyyat

1. Babayeva R. Quba şəhhərinin toy adətləri / Azərbaycan etnoqrafiyasına aid mmateriallar, №1, Az.SSR.EA nəşriyyatı, Bakl, 1946.
2. Bunyadova Ş. T. Nizami və etnoqrafiya. Bakı, Elm, 1992.
3. Əsədova S.D. Xalq ustası zərgər Ağamirzənin yaradıcılığı / Azərbaycan incəsənəti. Bakı, 1985.
4. Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı: İşıq, 1986.
5. Mahmud Qaşqari. Divani lüğəti türk. Ankara, 1939-1941.
6. Nəsrəddin Tusi. Tənsuqnameyi-elxani (Cəvahirnamə), Bakı: Elm, 1984.
7. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Elm, 1981.
8. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı: Elm, 1981.
9. Rzayev N. Möcüzəli qərinələr. Bakı: Elm, 1984.
10. Али-Бируни. Собрание сведений для познания драгоценностей (Минерология). (Перевод А.И.Белинцкого). Л.: Изд. АН СССР, 1963.

11. Богаевский Б.Л. Раковины в росписной керамике Китая, Крита и Триполя. // Известия ГАИМК, Л.: 1931. т.VI, вып. 8-9.
12. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана. XIII-XVII вв. Баку: Элм, 1982.
13. Керимов Л. Азербайлданский ковер. Баку: Изд. АНАз.ССР.
14. Михалевич Г.Р. Сообщение Насиреддина Туси о резном изумрудемХорезмшаха Текешаха. / Средняя Азия и Иран. Л., 1972
15. Омар Хайям. Трактаты. (пер. Розенфельда). В.А.М. Изд-во вост. литерт. 1961.
16. Раджабова Б.А. Предметы украшений Азербайджана (IV-XIII вв.) как источник по истории Азербайджана. Автореф. ...дисс. канд. ист. наук. Самарканд: 1990.
17. Тагиева Р., Карахмедова А. Бусы талышской зоны. Ар-хеологические и этнографические изыскания в Азер-байджане (1974 г.) Сб.: с. Баку, 1980.
18. Халилов Дж.А. О раннесредневековом могильнике у села Эных Кусарского района. // Арх. и этног. изыск. в Азербайджане 1973. Баку: Изд-во. Элм, 1974.
19. Чывырь Л.А. таджикские ювелирные украшения. М., Наука, 1977.

Məqalənin redaksiyaya daxilolma tarixi: 20.08.2025

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.08.2025

Məqalənin çapa qəbul olunma tarixi: 10.09.2025